# TÜRKİYƏ RESPUBLİKASI VƏ AZƏRBAYCAN RESPUBLİKASI ARASINDA UZUNMÜDDƏTLİ İQTİSADİ ƏMƏKDAŞLIQ PROQRAMI VƏ İCRA PLANI

Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti

- ticarət və iqtisadi sahələri əhatə etməklə, strateji əməkdaşlığı daha da gücləndirməyi arzu edərək,

- iqtisadi və ticari əlaqələrin müştərək mənafelər və qarşılıqlı fayda əsasında uzunmüddətli və davamlı bir təməl üzərində qurulmasını, daha da inkişaf etdirilməsini, ölkələrin iqtisadi potensialından yüksək səviyyədə istifadə edilməsini və hər iki ölkə xalqının rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyaraq,

- iki ölkə arasındakı iqtisadi və ticari əməkdaşlığın ən yüksək səviyyədə inkişaf etdirilməsi və bu əməkdaşlığa mənfi təsir göstərən maneələrin aradan qaldırılmasını təmin etmək məqsədi ilə,

- ticarət, sənaye, kənd təsərrüfatı, energetika, dağ-mədən, nəqliyyat, rabitə, maliyyə, bank işi, tikinti xidmətləri, turizm və digər iqtisadi sahələr, o cümlədən məşğulluq, sosial sığorta və səhiyyə sahələri də daxil olmaqla, bütün sahələrdəki iqtisadi əməkdaşlığı əhatə edən formada,

- 2004-cü il 13 aprel tarixində imzalanmış "Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi və ticari əməkdaşlıq Sazişi"nə əsasən,

aşağıdakılar barədə razılığa gəldilər.

<u>Ticarət əlaqələri:</u>

İki ölkə arasındakı ticarət əlaqələrinin daha da inkişafı üçün beynəlxalq öhdəliklər və milli qanunvericiliklər çərçivəsində qeyri-tarif maneələri aradan qaldırılacaqdır. Bu Proqramın və İcra Planının qüvvəyə minmə tarixindən etibarən altı ay ərzində qeyri-tarif maneələri barədə hesabatlar hazırlanacaq, mübadilə ediləcək və

həmin maneələrin hər iki ölkənin birgə mənafeləri naminə aradan qaldırılmasına dair müzakirələrə başlanacaqdır.

Türkiyə və Azərbaycanın aidiyyəti qurumları tərəfindən iki ölkə arasında Preferensial Ticarət Sazişinin imzalanması imkanları araşdırılacaqdır.

İki ölkənin özəl sektora aid qurumları və firmaları arasındakı iqtisadi və ticari fəaliyyətlərdən irəli gələ biləcək problemlərin mümkün qədər tez və ədalətli həlli üçün İşçi Qrup yaradılacaqdır.

Türkiyə - Azərbaycan İş Şurasının yığıncaqlarının mütəmadi olaraq ildə bir dəfə keçirilməsi məqsədi ilə hər iki ölkənin müvafiq qurumları təşviq ediləcək, Azərbaycanda və Türkiyədə təşkil olunan beynəlxalq sərgilərdə hər iki ölkənin firmalarının intensiv iştirakı dəstəklənəcək, ildə bir dəfə ticarət heyətləri arasında qarşılıqlı tədbirlərin təşkili təmin ediləcəkdir.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi və ticari əlaqələrin daha da inkişaf etdirilməsini təmin etmək məqsədi ilə dünyada qəbul edilən bütün ticarət metodlarının tətbiq edilməsi imkanları araşdırılacaqdır. Bununla bağlı olaraq, bu Proqramın və İcra Planının qüvvəyə minmə tarixindən etibarən üç ay ərzində bu sahədə əməkdaşlıq potensialının müəyyən edilməsi və təfərrüatlı araşdırmaların həyata keçirilməsi üçün hər iki ölkənin aidiyyəti qurum və təşkilatlarının nümayəndələrinin iştirakı ilə toplantı keçiriləcəkdir.

Hər iki ölkənin gömrük orqanları arasındakı əməkdaşlığın inkişafı davam etdiriləcək, ehtiyaca əsasən məlumat, təcrübə və mütəxəssis mübadiləsi həyata keçiriləcəkdir.

Türkiyə və Azərbaycan bankları arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi məqsədi ilə əməkdaşlıq davam etdiriləcəkdir.

Azərbaycanda kapital bazarı və birjalarının inkişaf etdirilməsi məqsədi ilə əməkdaşlıq ediləcək, bu sahədə Azərbaycan tərəfindən tələb olunan texniki yardım və mütəxəssislərə olan ehtiyac imkanlar çərçivəsində Türkiyə tərəfindən təmin ediləcəkdir.

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olmasının dəstəklənməsi və ÜTT-yə üzvlük prosesində gündəliyə çıxacaq mövzularla əlaqədar olaraq, hər iki ölkə mütəxəssisləri arasında məsləhətləşmələr aparılacaqdır.

İqtisadi əməkdaşlıq:

Azad iqtisadi zona:

Azərbaycan qanunvericiliyinə uyğun olaraq, Azərbaycanda Azərbaycan- Türkiyə azad iqtisadi zonasının yaradılması imkanlarının araşdırılması məqsədi ilə bu Proqramın və İcra Planının qüvvəyə minmə tarixindən etibarən üç ay müddətində müzakirələr başlanacaq və müzakirələr nəticəsində hazırlanacaq hesabat azad iqtisadi zona layihəsinin hazırlanması və həyata keçirilməsi ilə məşğul olan təşkilat və firmalara təqdim ediləcəkdir.

Azərbaycanda azad iqtisadi zonanın yaradılması zamanı lazım olan təlim dəstəyi və texniki yardımlar Türkiyə tərəfindən təmin ediləcəkdir.

Sənaye sahəsində əməkdaşlıq:

Türkiyə və Azərbaycanın qurum və firmalarının hər iki ölkədəki investisiya, sənaye istehsalı və modernləşdirmə fəaliyyətlərində iştirakları təşviq ediləcək, bu çərçivədə, xüsusilə kiçik və orta sahibkarlıq subyektləri arasındakı əməkdaşlığın inkişaf etdirilməsini təmin etmək məqsədi ilə kiçik və orta sahibkarlıq üçün məlumat bazalarının qarşılıqlı tətbiqi, m əlumat və təcrübə mübadiləsinin aparılması, mütəxəssis mübadiləsinin həyata keçirilməsi kimi tədbirlər həyata keçiriləcəkdir.

Sənaye sahəsindəki əməkdaşlığın inkişafını təmin etmək üçün hər iki ölkənin investisiya proqramları və prioritet sektorları haqqında mütəmadi qaydada məlumat mübadiləsi aparılacaqdır.

Energetika:

Neft və təbii qaz kimi strateji sahələr başda olmaqla, energetika sektoru hər iki ölkə arasında səmərəli əməkdaşlığın həyata keçirilməsi baxımından zəruri hesab edilən sahələrdən biri olduğundan, bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi və şaxələndirilməsi təmin ediləcəkdir.

Energetika sektorunda Azərbaycanın qurudakı və Xəzər hövzəsindəki digər karbohidrogen ehtiyatlarının Türkiyə vasitəsi ilə əsasən Avropa ölkələri olmaqla, dünya bazarlarına çıxarılması işləri təşviq ediləcəkdir.

Türkiyə Petrolları Anonim Ortaqlığının (TPAO) Azərbaycandakı və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Türkiyədəki mövcud və gələcək layihələri və fəaliyyətləri hər iki ölkənin qanunvericilikləri çərçivəsində dəstəklənəcəkdir.

Nəqliyyat:

Nəqliyyat sahəsində əlaqələrin dərinləşdirilməsi məqsədi ilə, iki ölkə arasında dəmir yolu, su və quruda yüklərin daşınmasının inkişaf etdirilməsi üçün lazımi şərtləri əhatə edən "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında Müqavilə"nin imzalanması sürətləndiriləcək, Azərbaycan və Türkiyənin qurum və firmaları tərəfindən Azərbaycanda müştərək nəqliyyat şirkətlərinin qurulması təşviq ediləcək, bu Proqramın və İcra Planının qüvvəyə minmə tarixindən etibarən altı ay ərzində bu sahədə hər iki ölkənin aidiyyəti qurumları tərəfindən regional nəqliyyat potensialının və birgə şirkət qurulması ilə bağlı qanunvericiliyin təfərrüatlı təhlilini ehtiva edən hazırlıq hesabatı tərtib ediləcəkdir, sonrakı altı ay ərzində hər iki ölkənin müvafiq qurum və təşkilatlarının nümayəndələrinin iştirakı ilə toplantı təşkil olunaraq bu mövzuda görülən işlər müzakirə ediləcəkdir.

Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi və ticarı əlaqələrin ən yüksək səviyyəyə qaldırılmasını təmin etmək məqsədi ilə ikitərəfli və tranzit nəqliyyat sahəsində qarşılıqlı surətdə ən əlverişli imkanlar təmin ediləcəkdir, həmçinin Bakı-İstanbul-Bakı istiqamətində mütəmadi olaraq, beynəlxalq avtobus reyslərinin bərabərlik prinsipləri çərçivəsində həyata keçirilməsi və yükdaşımalarda avtomobil vasitələrinin geri dönərkən yük götürməsi üçün lazımi şərait yaradılacaqdır. Bu məqsədlə görülən işlər Müştərək İqtisadi Komissiyanın və Birgə Nəqliyyat Komissiyasının iclaslarında müzakirə ediləcəkdir.

Azərbaycanın yol şəbəkəsinin reabilitasiyası və yeni yolların salınması üzrə hər iki ölkənin qurum, təşkilat və firmaları arasında əməkdaşlıq genişləndiriləcəkdir.

Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsinin həyata keçirilməsi istiqamətində işlər sürətləndiriləcəkdir.

Türkiyə Respublikası Dövlət Dəmir Yolları İşlətməsi (TCDD) ilə Azərbaycan Dövlət Dəmir Yolu (ADDY) arasındakı institusional əməkdaşlığın inkişaf etdirilməsi və yeni əməkdaşlıq imkanlarının müəyyən edilməsi məqsədi ilə görüşlər keçiriləcəkdir.

Strateji əməkdaşlığın daha da gücləndirilməsi məqsədi ilə Xəzər və Qara dəniz hövzələrində multimodal yük daşımalarının inkişafı sahəsində müzakirələr aparılacaqdır.

Azərbaycana məxsus təyyarələrin xidmət və təmir işlərinin Türkiyədə aparılması imkanlarının genişləndirilməsi araşdırılacaqdır.

Rabitə:

Türkiyə ilə Azərbaycan arasında Trans-Asiya-Avropa fiber-optik kabel xətti bağlantısının Gürcüstan üzərindən çəkilməsi məqsədi ilə, habelə bu sahədə digər imkanlardan birgə yararlanmaq üçün əməkdaşlıq həyata keçiriləcəkdir.

Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında fiber-optik kabel xəttinin çəkilməsi istiqamətində işlər sürətləndiriləcəkdir.

Azərbaycanın Türksat A.Ş. peyklərinin rabitə və yayım həcmlərindən faydalanmasını təmin etmək məqsədi ilə danışıqlar aparılacaqdır.

Azərbaycan Respublikasında informasiya texnologiyaları (İT) ilə əlaqədar Azad İqtisadi Zonanın – İT Texnoparkının yaradılmasında əməkdaşlıq ediləcəkdir.

Turizm sahəsində əməkdaşlıq:

Azərbaycan və Türkiyənin turizm potensialının hər iki ölkə vətəndaşlarına yüksək səviyyədə tanıdılması məqsədi ilə əməkdaşlıq davam etdiriləcək, hər iki ölkənin dövlət qurumları və özəl şirkətləri arasında əlaqələr genişləndiriləcək, Azərbaycandakı turizm infrastrukturunun yenilənməsi və ya inkişafı istiqamətindəki işlərdə əməkdaşlıq imkanları müzakirə ediləcəkdir. Bununla əlaqədar, bu Proqramın və İcra Planının qüvvəyə minmə tarixindən etibarən altı ay ərzində bir tədqiqat tipli hesabat hazırlanacaq və hər iki ölkənin müvafiq qurum və təşkilatlarına təqdim ediləcəkdir.

Müştərək turizm layihələrinin həyata keçirilməsi sahəsində hər iki ölkənin investorlarının təşviq edilməsi istiqamətində işlər görüləcəkdir.

Türkiyənin müvafiq təhsil qurumları ilə Azərbaycanda yeni yaradılmış Azərbaycan Turizm İnstitutu arasında əlaqələr yaradılacaq və Türkiyədən mütəxəssislər dəvət ediləcəkdir.

Kənd təsərrüfatı:

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafı istiqamətində işlər Türkiyə - Azərbaycan Kənd Təsərrüfatı İcra Komitəsinin fəaliyyətləri çərçivəsində həyata keçiriləcək, mövcud saziş və protokollarda nəzərdə tutulan əməkdaşlıq sahələri ilə yanaşı yeni əməkdaşlıq sahələrinin müəyyən edilməsinə dair fikir mübadiləsi aparılacaqdır.

Naxçıvan Muxtar Respublikası:

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişaf etdirilməsi məqsədi ilə həyata keçirilən əməkdaşlıq, bu Proqramdan və İcra Planından asılı olmadan, hazırlanacaq konkret layihələr əsasında davam etdiriləcəkdir.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı, yeyinti sənayesi, tekstil sənayesi sahələrində kiçik və orta müəssisələrin yaradılması və mövcud müəssisələrin yeniləşdirilməsi istiqamətindəki əməkdaşlıq, hazırlanacaq konkret layihələr əsasında həyata keçiriləcəkdir.

Azərbaycan ilə Türkiyə arasında bu Proqramın və İcra Planının qüvvəyə minmə tarixindən etibarən üç ay ərzində aparılacaq müzakirələr nəticəsində Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətində müştərək fəaliyyət proqramı hazırlanacaqdır.

Digər sahələr:

Türkiyə və Azərbaycanda təşkil olunan təlim, seminar, digər tədbirlər barədə elanlar və qüvvədə olan ticarət-iqtisadi mövzulara dair qanunvericilik diplomatik kanallar vasitəsilə mütəmadi olaraq mübadilə ediləcəkdir.

Proqramın və İcra Planının həyata keçirilməsinin əsasları:

Bu Proqramın və İcra Planının həyata keçirilməsi, Proqramda və İcra Planında nəzərdə tutulan mövzularla əlaqədar, illik əsasda hazırlanan və tərəflər arasında razılaşdırılan konkret layihələr çərçivəsində təmin ediləcəkdir.

Proqramın və İcra Planının koordinasiyası, nəzarəti və yenilənməsi:

Bu Proqramda və İcra Planında nəzərdə tutulan müddəaların yerinə yetirilməsinin koordinasiyası, 2004-cü il 13 aprel tarixli « Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi və ticari əməkdaşlıq haqqında Saziş»in 4-cü m addəsinin 2-ci bə ndinə ə sasən, Türkiyə Respublikası Baş Nazirliyinin Xarici Ticarət Müstəşarlığı və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçiriləcəkdir.

Koordinasiya qurumları «Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi və ticari əməkdaşlıq haqqında Saziş»in 4-cü maddəsinin b) yarımbəndinə əsasən altı aylıq müddət üzrə Nəzarət və Dəyərləndirmə Hesabatları hazırlayacaq və mübadilə edəcəklər.

Bu Proqram və İcra Planı «Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi və ticari əməkdaşlıq haqqında Saziş»in 6-cı maddəsinə uyğun olaraq yenilənəcəkdir.

Qüvvəyə minmə:

Bu Proqram və İcra Planı zəruri olan dövlətdaxili prosedurların tamamlanması ilə bağlı sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsi ilə alındığı tarixdən qüvvəyə minəcəkdir.

Tərəflərdən biri digər tərəfə yazılı bildiriş təqdim edərək, Proqrama və İcra Planına xitam verə bilər. Bu halda Proqram və İcra Planı belə bildirişin alındığı tarixdən altı ay sonra öz qüvvəsini itirəcəkdir.

Bakı şəhərində « 6 » noyabr 2007-ci il tarixində hər biri Azərbaycan və türk dillərində iki əsl nüsxədə imzalanmışdır və hər iki mətn eyni qüvvəyə malikdir.

| TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN | AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN |
|---|---|
| Kürşat Tüzmən<br>Dövlət Bakanı | Abid Şərifov<br>Baş nazirin müavini |